*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s. 41-45*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p. 41-45*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с. 41-45*

**UOT: 37.017:37.013**
https://doi.org/10.30546/670832.2025.01.1205

# Vətənpərvərlik tərbiyəsinin formalaşdırılması üzrə işin nəzəri və metodoloji əsasları haqqında təsiri

**Müəllif(lər):**

**Fidan Məmmədova**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** Fidimemmedova@gmail.com

**Açar sözlər:** vətənpərvərlik tərbiyəsi, pedaqoji metodlar, milli-mənəvi dəyərlər, sosial fəaliyyət, interaktiv təlim

**Annotasiya.** Təhsil sistemində vətənpərvərlik tərbiyəsinin inkişafı müasir dövrün ən aktual məsələlərindən biridir. Bu tərbiyə, şagird və tələbələrin yalnız nəzəri biliklər əldə etməsi ilə məhdudlaşmır, həm də onların milli-mənəvi dəyərlərə bağlılığını artıraraq, cəmiyyətin fəal və vətənpərvər üzvləri kimi formalaşmasına xidmət edir. Tədqiqatın məqsədi vətənpərvərlik tərbiyəsinin formalaşmasına təsir göstərən pedaqoji metodları araşdırmaq, onların effektivliyini müəyyənləşdirmək və təhsildə tətbiq edilən yanaşmaları təhlil etməkdən ibarətdir. Bu tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, müasir metod və yanaşmaların tətbiqi ilə vətənpərvərlik tərbiyəsinin keyfiyyətinin artırılması və şagirdlərin vətənə bağlılıq səviyyəsinin yüksəldilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Tədqiqat çərçivəsində tarixi və mədəni irsə əsaslanan metodlar, bədii və ədəbi yanaşmalar, sosial fəaliyyətlər, dramatizasiya və İKT əsaslı interaktiv dərs metodları araşdırılmışdır. Tədqiqatın ararılmasında müəyyənedici, tətbiqi və qiymətləndirici mərhələlər üzrə sorğu, müsahibə, müşahidə, eksperiment və interaktiv təlim metodlarından istifadə olunmuşdur. Aparılan tədqiqat təsdiqlədi ki, vətənpərvərlik tərbiyəsinin inkişafında inteqrativ və interaktiv metodların tətbiqi mühüm rol oynayır və bu yanaşmalar şagirdlərin motivasiyasını artıraraq onları milli-mənəvi dəyərlərə daha dərindən yiyələnməyə təşviq edir. Tədqiqat nəticələri göstərmişdir ki, müasir pedaqoji texnologiyaların tətbiqi və yaradıcı yanaşmaların inkişaf etdirilməsi, gələcəkdə daha uğurlu və vətənpərvər nəsillərin yetişdirilməsinə şərait yaradacaqdır.

## The theoretical and methodological foundation of the formation of patriotic education

**Author(s):**

**Fidan Mammadova**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** Fidimemmedova@gmail.com

**Key words:** patriotic education, pedagogical methods, national and spiritual values, social activity, interactive learning

**Abstract.** The development of patriotic education in the education system is one of the most urgent issues of the modern era. This education is not limited to the acquisition of theoretical knowledge by pupils and students, but also serves to form them as active and patriotic members of society by increasing their commitment to national and spiritual values. The purpose of the study is to investigate the pedagogical methods that affect the formation of patriotic education, to determine their effectiveness, and to analyze the approaches used in education. The theoretical and practical significance of this study is of particular importance in terms of improving the quality of patriotic education and raising the level of students' loyalty to the homeland through the application of modern methods and approaches. Within the framework of the study, methods based on historical and cultural heritage, artistic and literary approaches, social activities, dramatization, and ICT-based interactive teaching methods were investigated. In the research, survey, interview, observation, experiment, and interactive learning methods were used at the defining, applied, and evaluative stages. The conducted study confirmed that the application of integrative and interactive methods plays an important role in the development of patriotic education, and these approaches increase the motivation of students and encourage them to master national and spiritual values more deeply. The results of the study showed that the application of modern pedagogical technologies and the development of creative approaches will create conditions for the upbringing of more successful and patriotic generations in the future.

## К теоретико-методическим основам работы по формированию патриотического воспитания

**Автор(ы):**

**Фидан Мамедова**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** Fidimemmedova@gmail.com

**Ключевые слова:** патриотическое воспитание, педагогические методы, национально-нравственные ценности, социальная деятельность, интерактивное обучение

**Аннотация.** Развитие патриотического воспитания в системе образования является одним из наиболее актуальных вопросов современности. Это воспитание не ограничивается только приобретением учащимися и студентами теоретических знаний, но и служит формированию их как активных и патриотичных членов общества, повышая их приверженность национально-нравственным ценностям. Цель исследования состоит в изучении педагогических методов, влияющих на формирование патриотического воспитания, выявлении их эффективности, анализе применяемых подходов в воспитании. Теоретическая и практическая значимость данного исследования имеет особое значение с точки зрения повышения качества патриотического воспитания и повышения уровня приверженности учащихся родине за счет применения современных методов и подходов. В рамках исследования были использованы методы, основанные на историко-культурном наследии, художественно-литературные подходы, социальная деятельность, методы интерактивных уроков на основе драматизации и ИКТ. При исследовании использовались и методы опроса, интервью, наблюдения, эксперимента и интерактивного обучения на определяющих, прикладных и оценочных этапах. Проведенное исследование подтвердило, что важную роль в развитии патриотического воспитания играет применение интегративных и интерактивных методов, и эти подходы повышают мотивацию учащихся, побуждают их к более глубокому усвоению национально-нравственных ценностей. Результаты исследования показали, что внедрение современных педагогических технологий и развитие творческих подходов создаст условия для воспитания более успешного и патриотичного поколения в будущем.

**Giriş.** Nəzəri-metodoloji yanaşmalar, gənclərin şəxsiyyətinin formalaşmasında bütün səviyyələrdə müvafiq prinsiplərin tətbiqini nəzərdə tutur. Bu prinsiplər arasında şəxsiyyətin mərkəzləşdirilməsi, aktyorlaşma, interaktivlik və praktikada tətbiq olunma prinsipləri mövcuddur. Şagirdlər, müasir texnologiyalar vasitəsilə tərbiyə olunduqda, həm biliklərini artırır, həm də milli ruhlarını gücləndirirlər. Bu, gənclərin Vətənə olan sevgisini və bağlılığını artırır, milli kimliklərini qorumağa yönəldir.

Müasir dövrdə texnologiyanın sürətli inkişafı hər bir sahədə olduğu kimi, təhsil və tərbiyə sahəsinə də təsirsiz ötüşmür. Xüsusilə böyüyən nəslin vətənpərvərlik tərbiyəsində müasir texnologiyaların rolu aktuallıq kəsb edir. Texnoloji vasitələrin geniş yayılması və müxtəlif təhsil resurslarına çıxış imkanlarının artırılması, şagirdlərin dünyagörüşünü genişləndirmək və onlarda vətənə sevgi, milli kimlik anlayışlarını formalaşdırmaq üçün geniş imkanlar yaradır. Müasir texnologiyaların tətbiqi ilə vətənpərvərlik tərbiyəsinin daha təsirli və səmərəli olması mümkündür. Texnologiyaların köməyi ilə şagirdlər tariximizi, mədəniyyətimizi daha dərindən öyrənə bilir, müstəqil Azərbaycan dövlətinin nailiyyətləri və qəhrəmanlıq salnamələri haqqında əyani bilgilər əldə edə bilirlər. Bu gün vətənpərvərlik tərbiyəsi üzrə müxtəlif interaktiv proqramlar, oyunlar, virtual muzeylər, onlayn dərsliklər və video materiallar hazırlanaraq istifadəyə verilir. Bu resurslar vasitəsilə şagirdlər vətənə sevgi ruhunda tərbiyə alır, müasir dünyada Azərbaycan xalqının yerini və rolunu daha aydın başa düşürlər. İnteraktiv texnologiyalar, xüsusən də vətənpərvərlik mövzularında müzakirələrə, layihələrə və komandalarla işləməyə cəlb olunma, şagirdlərə vətəndaşlıq məsuliyyətini dərk etdirməyə və milli birliyə töhfə verməyə kömək edir.

Tədqiqatın məqsədi böyüyən nəslin vətənpərvərlik tərbiyəsində müasir texnologiyaların rolunu və əhəmiyyətini araşdırmaq, bu sahədə effektiv metod və yanaşmaları müəyyən etməkdir. Məqsəd həmçinin texnologiyanın tədris və tərbiyə prosesində necə tətbiq edilərək vətənpərvərlik dəyərlərinin daha təsirli şəkildə şagirdlərə ötürülməsini təmin etməkdir.

Müasir texnologiyaların istifadəsi, şagirdlərin vətənpərvərlik dəyərlərini daha əyani və cəlbedici şəkildə öyrənmələrinə kömək edir. İnteraktiv proqramlar və multimedia resursları, şagirdlərin dərs prosesinə aktiv şəkildə cəlb olunmasını təmin edərək, onların milli kimlik anlayışlarını gücləndirir. Müasir texnologiyalar, şagirdlərə vətən tarixi, mədəniyyəti və qəhrəmanlıq salnamələri haqqında daha geniş və ətraflı biliklər əldə etməyə imkan tanıyır. Müəllimlərin texnologiyalardan istifadə edərək hazırladıqları dərslər, vətənpərvərlik tərbiyəsini daha müasir və təsirli üsullarla həyata keçirmək üçün şərait yaradır. Vətənpərvərlik tərbiyəsində rəqəmsal platformalar, şagirdlərin həmyaşıdları ilə müzakirələr aparması, fikir mübadiləsi etməsi və milli dəyərləri paylaşması üçün ideal imkanlar təqdim edir. Texnologiyaların tətbiqi, şagirdlərin mədəni və sosial dəyərləri mənimsəməsində yeni yanaşmaların inkişafına şərait yaradır, bu da onların vətənə bağlılığını artırır. Onlayn resurslar və virtual dərsliklər, şagirdlərə müxtəlif dillərdə və formatlarda milli dəyərləri öyrənmək imkanı verərək, onların qlobal dünyadakı yerini dərk etmələrinə kömək edir. Müasir dövrdə vətənpərvərlik tərbiyəsinin effektivliyi, dövlətin təhsil siyasətinin müasir texnologiyalarla inteqrasiyası ilə daha da artırılır. Texnologiyaların inkişafı, gələcək nəsillərə milli dəyərlərin, mədəniyyətin və tarixin daha effektiv şəkildə ötürülməsini təmin edir. Vətənpərvərlik tərbiyəsində müasir texnologiyaların istifadəsi, şagirdlərin sosial məsuliyyət hisslərini formalaşdıraraq, onlarda vətənə qarşı sevgi və bağlılıq duyğularını gücləndirir.

Bu mövzu, böyüyən nəslin vətənpərvərlik tərbiyəsində müasir texnologiyaların rolunu yeni bir perspektivdən araşdırır. Müasir texnologiyaların pedaqoji proseslərə təsiri və onların şagirdlərdə milli dəyərləri necə inkişaf etdirdiyi öyrənilmişdir. Tədqiqat, texnologiyaların vətənpərvərlik dəyərlərinin mənimsənilməsində əsas vasitə kimi istifadəsini nəzəri və praktiki baxımdan əsaslandırır. Eyni zamanda, şagirdlərin texnologiyalardan istifadə etməklə əldə etdiyi vətənpərvərlik biliklərinin formalaşdırılmasına dair yeni yanaşmalar təqdim edir. Tədqiqatda, şagirdlərin milli və sosial dəyərlərə daha dərindən bağlılığına texnologiyaların təsiri xüsusi vurğulanmışdır. Həmçinin, texnologiyaların sosial və vətənpərvərlik davranışlarına müsbət təsir göstərdiyi yeni faktlar aşkar edilmişdir.

Nəzəri əsasların öyrənilməsi, vətənpərvərliyin formalaşmasında təsirli olan faktorları müəyyən etməyə imkan tanıyır. Bu amillər arasında ailə, məktəb və cəmiyyətin rolu xüsusi əhəmiyyət kəsb edir. İnteraktiv tədris metodları, oyunlar, layihələr və seminarlar vasitəsilə şagirdlərdə milli hisslərin inkişafı nəzərdən keçirilmişdir. Həmçinin, müasir texnologiyaların tətbiqi, şagirdlərin vətənpərvərlik biliklərini artırmaqda əhəmiyyətli rol oynayır.

Metodoloji əsaslar, vətənpərvərlik tərbiyəsinin sistematik və məqsədyönlü şəkildə həyata keçirilməsi üçün zəruridir. Bu metodlar, pedaqoq və müəllimlərin fəaliyyətlərini yönəldir və tərbiyə prosesinin effektivliyini artırır. Tədqiqat, həmçinin müxtəlif təhsil səviyyələrində vətənpərvərlik tərbiyəsi üçün uyğun metodların seçilməsi məsələsini müzakirə edir. Bu yanaşma, müxtəlif yaş qruplarının xüsusiyyətlərini nəzərə alaraq, tərbiyə prosesinin fərdiləşdirilməsinə imkan tanıyır.

**Material və metodlar.** Tədqiqatda ilk növbədə ədəbiyyat təhlili metodu tətbiq edilir. Bu metod çərçivəsində mövcud elmi mənbələr, kitablar, məqalələr və digər materiallar təhlil edilərək müasir texnologiyaların vətənpərvərlik tərbiyəsindəki rolu araşdırılır.

Müəyyənedici mərhələdə vətənpərvərlik tərbiyəsinin mövcud vəziyyətini araşdırmaq məqsədilə müxtəlif yaş qruplarına aid şagirdlər və tələbələr arasında sorğular keçirilmiş, məktəb və universitetlərdə bu sahədə tətbiq olunan pedaqoji yanaşmalar öyrənilmişdir. Bu mərhələdə müəllimlər, valideynlər və şagirdlər arasında vətənpərvərlik anlayışı və onun tədris prosesindəki rolu ilə bağlı müsahibələr təşkil edilmişdir. Eyni zamanda, məktəb proqramlarında və dərsliklərdə vətənpərvərlik tərbiyəsinə ayrılan yer və metodlar təhlil olunmuşdur.

Tətbiqi mərhələdə vətənpərvərlik tərbiyəsinin inkişafına yönəlmiş xüsusi proqram hazırlanmış və müxtəlif təhsil müəssisələrində sınaqdan keçirilmişdir.

Şagird və tələbələr üçün tarixi abidələrə, muzeylərə ekskursiyalar təşkil edilmiş, Azərbaycanın milli qəhrəmanlarının həyat və fəaliyyətləri haqqında müzakirələr aparılmışdır. Vətənpərvərlik mövzusunda şeirlər, nəsr əsərləri və tarixi romanların oxunması və müzakirəsi təşkil olunmuşdur. Şagirdlər arasında vətənə həsr olunmuş inşa yazı müsabiqələri keçirilmiş, milli-mənəvi dəyərləri əks etdirən bədii ədəbiyyat nümunələri tədris olunmuşdur. Şagird və tələbələrin iştirakı ilə milli-mənəvi dəyərləri əks etdirən sosial layihələr həyata keçirilmişdir. Bu layihələr çərçivəsində Vətən Müharibəsi iştirakçıları və şəhid ailələri ilə görüşlər təşkil olunmuş, onların vətənpərvərlik ruhunda keçdiyi həyat yolu barədə məlumatlar toplanmış və müzakirə olunmuşdur. Vətənpərvərlik mövzusunda tamaşalar hazırlanmış, şagird və tələbələrin iştirakı ilə teatr səhnəcikləri nümayiş etdirilmişdir. Rollu oyunlar vasitəsilə tarixi hadisələrin və qəhrəmanlıq nümunələrinin canlandırılması təmin olunmuşdur. Müasir texnologiyalardan istifadə edərək interaktiv dərslər keçirilmiş, vətənpərvərlik ruhunda hazırlanmış filmlər və sənədli videolar izlənmişdir. Eyni zamanda, şagirdlərin özlərinin hazırladığı təqdimatlar və videomateriallar vasitəsilə onların mövzuya olan marağı artırılmışdır.

Qiymətləndirici mərhələdə tətbiq edilən metodların effektivliyi qiymətləndirilmiş, eksperiment nəticələri müqayisə edilərək vətənpərvərlik tərbiyəsinin inkişaf dinamikası təhlil olunmuşdur. Bu mərhələdə şagird və tələbələrin dünyagörüşündə, milli dəyərlərə və vətənə bağlılıq hissində baş verən dəyişikliklər müşahidə edilərək nəticələr ümumiləşdirilmişdir. Nəticələrə əsasən müəyyən edilmişdir ki, vətənpərvərlik tərbiyəsi üçün müasir interaktiv metodların tətbiqi, praktiki fəaliyyətlər və yaradıcı yanaşmalar şagirdlərin bu sahədə fəallığını artırır və onların milli dəyərlərə daha çox bağlanmasına şərait yaradır.

Tədqiqatın nəticələri göstərmişdir ki, inteqrativ və interaktiv metodların tətbiqi vətənpərvərlik tərbiyəsinin daha effektiv formalaşmasına müsbət təsir göstərir. Bu metodlar sayəsində şagirdlər təkcə nəzəri biliklər əldə etmir, həm də praktiki olaraq milli və mənəvi dəyərləri mənimsəyərək onlara daha dərindən yiyələnirlər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti geniş spektri əhatə edir. İlk növbədə, bu tədqiqat müasir texnologiyaların vətənpərvərlik tərbiyəsindəki rolunu nəzəri cəhətdən açıqlayaraq yeni biliklər təqdim edir. O, təhsil sahəsindəki müasir yanaşmaları nəzərə alaraq texnologiyaların tət-

biqi ilə bağlı elmi əsaslar yaradır. Eyni zamanda, tədqiqatın nəticələri təhsil müəssisələrində vətənpərvərlik tərbiyəsinin effektivliyini artırmaq üçün praktiki tövsiyələr təqdim edir. Tədqiqatın nəticələri, müəllimlərin vətənpərvərlik tərbiyəsi üçün istifadə edə biləcəyi konkret metodiki yanaşmaların inkişafına kömək edir. Ayrıca, şagirdlərin milli dəyərləri daha yaxşı mənimsəmələrinə imkan tanıyan resurslar təqdim edir. Tədqiqat, həmçinin valideynlərin və cəmiyyətin vətənpərvərlik tərbiyəsinə qatqısını artırmaq məqsədilə yeni strategiyalar irəliləyir. Nəticələr, gələcək tədqiqatlar üçün də bir baza yaradır, belə ki, daha geniş və dərin araşdırmaların aparılması mümkündür. Beləliklə, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, həm akademik mühitdə, həm də real təhsil praktikalarında geniş tətbiq imkanlarına malikdir. Bu, tədqiqatın həm də cəmiyyətin milli dəyərlərə bağlılığını artırmağa yönəlmiş bir vasitə kimi qiymətləndirilməsinə səbəb olur.

**Nəticə və müzakirə.** Aparılan elmi-tədqiqat işləri göstərir ki, texnologiya vasitəsilə gənclərə vətənpərvərlik hissinin aşılanması daha effektli olur. Onlayn platformalar, sosial şəbəkələr və interaktiv proqramlar vasitəsilə gənclərlə birbaşa əlaqə qurmaq mümkündür. Bu üsullar, milli dəyərlərin və tarixi biliklərin gənclərə daha cəlbedici şəkildə təqdim olunmasına imkan tanıyır.

Vətənpərvərlik anlayışı, bir çox müəlliflər tərəfindən fərqli perspektivlərdən ələ alınmışdır. Məsələn, M.F.Axundov, vətənpərvərlik tərbiyəsinin mahiyyətini şagirdlərin milli kimliyinin formalaşması ilə əlaqələndirir. Eyni zamanda, N.K. Karamzin, vətənpərvərliyin tarixi və mədəni kontekstdə necə inkişaf etdiyini araşdırmışdır [2].

D.A.Zabelin, müasir dövrdə vətənpərvərliyin rolu və əhəmiyyətini vurğulayaraq, tərbiyə sisteminin strukturunu analiz edir. O, vətənpərvərlik tərbiyəsinin sistemli yanaşmasını irəliləyərək, bu sahədə metodologiyanın əhəmiyyətini qeyd edir. Həmçinin, S.A.Fedorov, məktəb yaşlı uşaqlarda vətənpərvərlik tərbiyəsinin formalaşmasını sosial mühitin təsiri ilə izah edir. Bu aspekt, tərbiyə prosesinin müxtəlif amillərlə əlaqələndirilməsini təmin edir [7].

Vətənpərvərlik tərbiyəsi mövzusu, həmçinin fəlsəfi və psixoloji yanaşmalarla da zənginləşdirilmişdir. E.İ.Gertsen, sosial vətənpərvərlik anlayışını izah edərək, onun insanın psixologiyasına təsirini vurğulayır. O, insanın öz vətəninə qarşı duyduğu sevgi və bağlılığın tərbiyəvi aspektlərini ətraflı araşdırır. Nəzəri əsaslar arasında mədəniyyətin və tarixin vətənpərvərlik tərbiyəsindəki rolu da müzakirə edilir. Vətənpərvərlik tərbiyəsinin həyata keçirilməsi üçün konkret metodların və strategiyaların müəyyən edilməsi zəruridir.

Bu tərbiyə prosesi orta ümumtəhsil müəssisələrində yaş qruplarına görə təsnif olunur: 1-4-cü siniflər, 5-8-ci siniflər və 9-11-ci siniflər. Bu təsnifat, hər yaş qrupunun özünəməxsus mərhələlərinə uyğun olaraq, hərbi bilik və bacarıqların artırılması məqsədini güdür. Bu mərhələlərdə hərbi vətənpərvərlik tərbiyəsinin texnologiyası, şagirdlərin ehtiyaclarına və inkişaf səviyyələrinə uyğun şəkildə təşkil olunur.

V sinif Azərbaycan dili dərsliyinin "Tarix və mədəniyyət abidələri" adlı 4-cü bölməsində Azərbaycanın qədim abidələri haqqında ətraflı məlumat verilir. Bu bölmədə Atəşgah, Şuşa, Çıraq və Pəri qalaları, Dərbənd qalası, Kiş, Alban məbədi, İçərişəhər, Memar Əcəmi, İsmayıliyyə Teatrı, Gələrsən-Görsən qalası, Səadət sarayı kimi mühüm yerlər əhatə olunur. Burada Cənubi və Şimali Azərbaycanı birləşdirən Xudafə körpüsü haqqında da məlumatlar yer alıb. Bu abidələrlə tanış olmaqla tələbələr öz ölkələrinin zəngin tarixi və mədəni irsi haqqında dərindən dərk edir, qürur hissi və vətənə bağlılıq hisslərini aşılayırlar [1].

Məktəblərdə bu tərbiyəvi tədbirlərin həyata keçirilməsində sinif rəhbərinin rolu böyükdür. Sinif rəhbərinin planına təkcə dərslər deyil, həm də təhsil məqsədlərini dəstəkləyən sinifdənkənar fəaliyyətlər üçün vaxt da daxil edilməlidir. Bu fəaliyyətlər şəxsi inkişafı və vətəndaşlıq hissini inkişaf etdirmək üçün hazırlanmalıdır. Plan aşağıdakıları əhatə etməlidir:

- Şagirdləri ölkədəki mühüm tarixi və cari hadisələr haqqında məlumatlandırmaq.
- Məktəb qaydalarına riayət etməyin vacibliyini gücləndirmək və nizam-intizamı gücləndirmək.
- Şagirdlər arasında müsbət münasibətlərin və əməkdaşlığın təşviqi.
- Şagirdlərə tarixi və mədəni yerləri ziyarət etməklə öz ölkələri haqqında məlumat əldə etmək imkanlarının təmin edilməsi.

• Şagirdləri ictimai işlərə və kollektiv fəaliyyətlərə cəlb etmək.

Araşdırmalar nəticəsində məlum olub ki, interaktiv oyunlar və simulyasiyalar gənclərin Vətənə bağlılıq hissini artırır. Məsələn, müxtəlif tarixi hadisələrin simulyasiyaları, gəncləri əsgər roluna daxil edərək onlara məsuliyyət və qürur hissi aşılayır. Eyni zamanda, virtual reallıq (VR) texnologiyaları ilə gənclərin müharibə dövründəki şəraitləri təcrübə etməsi onların psixoloji hazırlığını artırır.

**Yekun nəticə.** Yekun olaraq, müasir texnologiyalar vasitəsilə böyüyən nəslin vətənpərvərlik tərbiyəsinin təşviqi, gələcəyin vətənpərvər gənclərinin yetişməsində mühüm rol oynayır. Beləliklə, elmi-tədqiqat işinin yekun nəticələri, müasir texnologiyaların vətənpərvərlik tərbiyəsindəki rolunu təsdiqləyir və bu sahədə davamlı innovativ yanaşmaların tətbiqinin zəruriliyini vurğulayır. Qeyd edək ki, bu sahədə mütəmadi tədqiqatların aparılması və yeni pedaqoji texnologiyaların təkmilləşdirilməsi gələcəkdə daha uğurlu nəticələrin əldə olunmasına şərait yaradacaqdır.

**Ədəbiyyat**

1. Abbasov, A.N. Ümumtəhsil məktəb şagirdlərini ailə həyatına hazırlamağın nəzəriyyəsi və metodikası: Ped. elm. dok. … dis. – Bakı: – 1995. – 309 s.
2. Abbasov, A.N. Pedaqogika / A.N.Abbasov. Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. – Bakı: Mütərcim, – 2010. – 356 s.
3. Abbasov, A.N. Milli əxlaq və ailə etikası / A.N.Abbasov. Dərslik. – Bakı: Mütərcim, – 2016, – 324 s.
4. Алиева, С.А. Основы процесса нравственного воспитания и развития подростков (по материалам школ Азербайджанской ССР): / автореф.дис. канд.пед.наук / – Баку: – 1979. – 22 с.
5. Бабанский, Ю.К. Оптимизация учебно-воспитательного процесса / Ю.К. Бабанский – Москва: Просвещение, – 1982. – 192 с.
6. Гусейнзаде, Р.Н., Мамедова, Т.М. Педагогика. – Баку: АГПИ, – 2015. – 318 с.
7. Durkheim, E. Moral Education: A Study in the Theory and Application of the Sociology of Education. – New York: Free Press, – 1961. – 432 p.
8. Banks, J.A. Cultural Diversity and Education: Foundations, Curriculum, and Teaching. – Boston: Pearson, – 2006. – 544 p.

*Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 16.01.2025, son daxilolma – 17.02.2025, qəbulolunma – 10.03.2025